

Vəliyulla NOVRUZOV

*"Gəl, sənə bir həzin şeir oxuyum"*
*Sona Vəliyeva*

Ürəyin kədərdən qubarlananda,
Sevgin zirvələrdən yuvarlananda,
Hicranın odunda qəlbin yananda,
"Gəl, sənə bir həzin şeir oxuyum".

Dayanaq üz-üzə, baxaq göz-gözə,
Alışıb qəlbimiz, qoy dönsün közə,
Bilirəm, həsrətsən bir şirin sözə,
"Gəl, sənə bir həzin şeir oxuyum"

Sənə xoşbəxt ömür mən diləyim, gəl,
Alışan ruhuna su çiləyim, gəl
Sözümə baxmır ki bu ürəyim, gəl, -
"Gəl, sənə bir həzin şeir oxuyum"

Hissimi, duyğumu tarıma çəkmə,
Dumana bürünüb, ruhuma çökmə,
Buluda çevrilib göz yaşı tökmə,
"Gəl, sənə bir həzin şeir oxuyum"

Baharda sel olub aşıb-daşaram,
Yarpaq dillərilə pıçıldaşaram,
Sənin xəyalınla qucaqlaşaram,
"Gəl, sənə bir həzin şeir oxuyum".

Gəl sənə bir həzin şeir oxuyum,
Beləcə oturub sən məni dinlə.
Kövrək xatirələr qucağında sən,
Bir azca duyğulan, bir azca inlə.
Göz yaşı içini yuyunca ağla,
Ölən sevgimizin yasını saxla.
"Gəl, sənə bir həzin şeir oxuyum".

## SİZƏ GÜVƏNDİYİM DAĞLAR

Sizə güvəndiyim dağlar,
Mən sizdən uman oldum.
zirvədə bulud idim
dərədə duman oldum.

Sıldırımlı qayalar
Yolumu kəsdi, nədən?
Soyuq dağ küləkləri
Üstümə əsdi, nədən?
Sinəmə dağ çəkildi
sızladım için-için.
Yandım, tüstüm çıxmadı
boğuldu çölüm, içim.

Çiynimdə dağ götürdüm ,-
Dərdim, dağlardan ağır.
Sənə səsim çatmadı,
Məni yanına çağır.

Düzlərində gül-çiçək,
yamacında dərd bitər.
Gözlərimdə nəmlə dolu,
çəkdiyin dağlar yetər...

Sizə güvəndiyim, dağlar,
siz məni sındırdınız.
sinəmə dağ çəkdiniz
od vurub yandırdınız...

## BU YALANÇI DÜNYANIN

Bu yalançı dünyanın,
Nəyinə bənd olmusan?
Bəlkə səni inlədən,
Neyinə bənd olmusan?

Bir qamış parçasıdır,
Doğranıb dilim-dilim.
Üfürdükcə ağzında,
Alışıb yanır dilin.

Yarandığı ilk gündən,
Fırlanır gündüz-gecə.
Oğul ona deyərəm,
Ələyindən yan keçə.

Bədəndə donur qanım -
Gör nə vaxtdan şəkərəm.
Əriyib gedən canın
Ağrısını çəkərəm.

Dünyanın nə vecinə,
Qalan quru səsimdir.
Köç eləsən dünyadan,
Beş arşın ağ bəsindi.

Dünya öz işindədir,
Qurub mizan-tərəzi.
Əyrini əyri çəkir
düzlə yoxdur qərəzi.

Min illərdi yerində,
Belə duran dünyadı.
Oddan, sudan, torpaqdan,
Yaradılan dünyadı.